*Azərbaycan Milli Elmlər Akademiyasi M. Füzuli adına Əlyazmalar Institutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2024*
*Səh. 90-96*

https://doi.org/10.62837/2024.10.90

**XƏYALƏ QASIMOVA**
**ADU**
**e-mail: gasimova.x@mail.ru**

# İNGİLİS DİLİNİN TƏDRİSİ ZAMANI İNTERAKTİV OXU DƏRSLƏRİNİN TƏŞKİLİ

**Xülasə**

Oxu bacarığı, insanların dil və kommunikasiya sahəsində əsas bacarıqlardan olub hər bir dilin öyrənilməsi üçün əsas mərhələlərdən biridir. Bu bacarıqların inkişaf etdirilməsi, insanların hər hansı bir dil və mətnləri başa düşməsini və mətnləri müxtəlif məqsədlərlə istifadə etməsini daha da asanlaşdırır. Oxu bacarığı əsasən, mətnləri başa düşmək, öyrənmək, məlumat toplamaq və yazılı əlaqə qurmaq üçün vacibdir. Bir dilin qrammatikası, sözləri, ifadələri və dilin digər özəllikləri başa düşmək, insanların digər insanlarla və mətnlərlə əlaqə qurması və müxtəlif sahələrdə işləməsi üçün vacibdir.

Oxu bacarığı ayrıca insanların yazılı mətnləri düzgün şəkildə tərcümə etmələrini və öz fikirlərini müxtəlif məqsədlərlə yazmağı öyrənməsinə kömək edir. Bu bacarıqların inkişaf etdirilməsi, insanların hər hansı bir dil və mətnləri başa düşmələrini daha asanlaşdırır və onları müxtəlif sahələrdə işləmək üçün hazırlayır. Əlavə olaraq, araşdırmalar göstərir ki, reseptiv bacarıqların inkişaf etdirilməsi, insanların mətnlərdəki məlumatları daha effektiv şəkildə öyrənmələrini və öz fikirlərini daha doğru şəkildə ifadə etmələrini mümkün edir. Bununla belə, dinləmə və oxuma bacarıqlarının inkişaf etdirilməsi, insanların məlumat bazarını genişləndirməsinə və müxtəlif sahələrdə işləməsinə imkan verir.

Ümumiyyətlə, oxu bacarığının inkişaf etdirilməsi insanların bir dil və mətnləri başa düşmələrini daha asanlaşdırır, məlumat bazarını genişləndirir, mətnləri müxtəlif məqsədlərlə istifadə etməyə imkan verir və öz fikirlərini daha doğru şəkildə ifadə etməyə kömək edir. Bu bacarıqların inkişaf etdirilməsi üçün isə, insanlar müxtəlif üsulları, məsələn, mətn oxuma, dinləmə və təkrar, fikirləri qeyd etmə və müxtəlif dil öyrənmə proqramlarını istifadə edə bilərlər.

***Açar sözlər:*** *interaktiv dərs, yazılı anlam, intensiv oxu, eksteniv oxu*

Yazılı anlamın tədrisinin kommunikativ təlimdə başlıca məqsədi dilöyrənənlərə tanış olmayan mətni müxtəlif məqsədlərlə oxumağı və oxuduğunu anlamağı öyrətməkdir. Bununla belə, xarici dillərin tədirisində oxuyub analama hər bir dərsin məqsəd və vəzifələri ilə yanaşı, bu məqsədlərin reallaşdırılma strategiyaları ilə sıx bağlıdır. Orta təhsil səviyyəsində oxu təliminin ümumi nəticələrinə, məzmun xətləri üzrə əsas və alt standartlara əsasən dərslikdə şagirdin qarşısında yazılı anlama bacarıqları sahəsində oxuduğu mətnin məzmununu mənimsədiyini nümayiş

etdirmək, söz və ifadələrin qrammatik-semantik xüsusiyyətlərini izah etmək, mətndəki müxtəlif konstruksiyalı cümləleri düzgün oxumaq, mətndəki nitq vahidlərindən istifadə etməklə öz fikirlərini müxtəlif formalarda ifadə etməklə oxuduğu mətnin məzmununu məntiqi ardıcıllıqla danışmaq, onun məzmununa yazılı və şifahi münasibət bildirmək kimi vərdişlərə yiyələnmək qoyulur.

Oxu (yazılı anlam) tədrisin bu səviyyəsində ingilis dilinin məmimsənilməsinə həvəsi artırır, şagirdin yeni bir mühitlə tanışlığına imkan yaradır. Şagird oxumağı bacarmırsa, danışmağı və yazmağı da bacarmayacaq və ən azından onun bu işə heç həvəsi də olmayacaq [7]. Bu proses isə oxu materillarının və onun tədrisinin düzgün seçimini vacib məsələ kimi qarşıda qoyur. Oxu bacarığı öyrənənlərin beyninin dili qəbul etmə yollarından biridir. Dinləmədən sonrakı əsas mərhələlərdən biri olan bu proses özündə bir sıra məsələlərin kombinasiyasını ehtiva edir. Bu cəhətdən dili öyrənən şəxslərdə dili qavramaq üçün əsaslı baza yaratmaq xüsusiyyətinə malikdir.

Yaranan baza sayəsində oxucu dilin qanunauyğunluqları ilə yaxından tanış ola bilir, bu, onda həm kontekst, həm də ətraf-mühit, mövzu barədə müəyyən təsəvvür formalaşdırır. Oxucu bu qabiliyyətin köməyi ilə beynində müəyyən oxşarlıqlar, fərqliliklər, hərf-səs arasındakı əlaqələr və dilin səs tərkibi, əlavə olaraq bütün digər əsas məsələlər haqqında bilik əldə etmiş olur. Eynilə dinləmə qabiliyyəti kimi reseptiv xarakter daşıyan bu bacarığın formalaşdırılması və inkişaf etdirilməsi oxucuda kreativ və tənqidi düşüncənin formalaşması baxımından da yararlıdır. Oxu bacarıqlarının aşılanması və formalaşdırılması üçün müxtəlif mənbələrdən istifadə edilir. Bu mənbələrə, əsasən, müstəqil kiçik mətnlər və kitablar aid edilir. Belə materiallar sayəsində öyrənənlər bir növ dilə "məruz qalırlar" və onlarda həm oxu fəaliyyəti, həm də digər əsas bacarıqlar üçün müəyyən qədər baza formalaşmış olur [1]. İkinci dilin öyrədilməsi və öyrənilməsinə sərf edilən vaxt yetərincə qənaət və effektivliklə istifadə edilərsə, bu, öz növbəsində həm prosesin sürətini, həm də produktivliyini artıra bilər.

Öyrədilən xarici dildə keyfiyyətli və mənalı kontent yaradılmalıdır və mənimsəmə prosesini mümkün qədər effektiv etmək yolunda müxtəlif yollar, metodlar lazımdır [6]. Yəni, metodoloji cəhətdən və öyrənənlərin fərdi və yaş xüsusiyyətlərini, motivasiya səviyyələrini, baza biliklərini, qavrama və anlama xüsusiyyətlərini nəzərə alaraq uyğun tapşırıqlar və materiallar hazırlanmalı, dilin öyrənilməsi hədəflənmiş hissəsi kontekstdə elə formada yerləşdirilməlidir ki, oxucular bundan ən yaxşı səviyyədə fayda ala və nəticədə hədəflənmiş biliklərə yiyələnmiş ola bilsinlər.

Oxu zamanı edilən tapşırıqlar və fəaliyyətlər eynilə oxunulan mətn qədər önəmlidir. Belə ki, müvafiq tip tapşırıqlar oxu prosesində oxudan əvvəl, oxu zamanı və oxudan sonrakı proseslərdə yerinə yetirilərsə, mətnin daha yaxşı qavranılmasına

gətirib çıxaracaq və prosesi daha produktiv edəcəkdir. Oxudan əvvəlki periodda edilməli olan bir sıra fəaliyyətlərə aiddir: [4]

1. Proqnozlaşdırıcı sualların verilməsi: Belə sualların verilməsi xüsusi əhəmiyyət daşıyır. Belə ki, mətnin başlığına uyğun olaraq şagirdlər mətndə nədən söhbət gedəcəyini proqnozlaşdıra bilərlər. Belə təxmin lər yürüdülməsi həm obrazlarç həm hadisələr, mümkün olduqda zaman və məkan məsələlərinə toxuna bilər. Bu üsul üçün, eynilə, mətn üçün çəkilmiş illüstrasiyalardan da istifadə edilə bilər. Tənqidi düşüncəni və xəyal gücünün də inkişaf edəcəyi bu tip motivasiya yaradılmasında iştirak edən texnikalar xüsusilə əlverişlidir.

2. Diskussiyalar təşkil edilə bilər. Belə bir fəaliyyət zamanı edilə biləcək bir sıra addımlar vardır. Onlardan biri bu şəkildə həyata keçirilə bilər: müəllim mövzu ilə bağlı fikir bildirən 4 cümlə hazırlayır, sonra onları sinfin 4 küncünə yapışdırır. Şagirdlər gedib ən çox razılaşmadıqları fikrin yanında dayanırlar. Qruplar fikirlə razılaşmayanların səbəbini izah edirlər.Sonra şagirdlər ən çox razılaşdıqları fikrin yanında dayanır və bu barədə qısa müzakirə aparırlar.

3. Üçüncü fəaliyyət sitatların istifadəsidir. Müəllim məşhur kitablardan və ya filmlərdən sitatlar seçə bilər. Oxucular üçün çox populyar bir sayt olan “Good Reads” saytında, seçilə biləcək sitatların yaxşı bir siyahısı vardır [8]. İşləniləcək mövzu ilə bağlı sitat taparaq və şagirdlərə üç nəfərdən ibarət qruplar yaradaraq seçilən sitatları müzakirə etməyi tapşırmaq olar . Şagirdlər bu kimi suallar üzərində düşünür və cavab verirlər: Onlar bununla razılaşırlarmı? Niyə/Niyə yox? Bu kimi suallar yardımçı ola bilər. Şagirdlər öz sitatlarını da təqdim edə bilərlər.

4. Açar sözlər təqdim etmək: Şagirdlər oxuyacaqları mətnə baxmazdan əvvəl müəllim lövhədə mətndən 5 və ya 6 söz yazır və şagirdlərdən mövzunu təxmin etməyi tapşırır. Oxucular hər kəsin görməsi və yadda saxlaması üçün lövhəyə yazıla biləcək ideyalar üzərində beyin fırtınası aparırlar. Bundan əlavə, müəllim şagirdlərin digər şagirdlər tərəfindən beyin fırtınası təşkil etdiyi fikirləri bəyənib-bəyənmədiyini öyrənmək üçün sorğu keçirə bilər..

5. Şəkillərə baxaraq təxmin etmək: Müəllim hekayə və ya oxu ilə əlaqəli 3 şəkil və ya obyekt tapır. Müəllim həmin şəkillərin və şəkillərin arasındakı əlaqənin nə olduğunu soruşur. Sonrakı mərhələdə, şagirdlər mətni oxuyarkən qurduqları hekayə əlaqələri haqqında doğru və ya yanlış olduqlarını yoxlayırlar.

6. Videolardan istifadə edilə bilər. Bu günlərdə çox sayda keyfiyyətli məzmun əlçatandır. Xüsusilə, yerli danışıq səviyyəsində olan videoların istifadəsi daha məqsədəuyğun hesab olunur. Çünki müəllim sinifdə nə qədər etalon rolunu oynasa da, belə dialoqları eşitmək şagirdlər üçün faydalı olacaqdır [3]. Digər bir tərəfdən isə, videolar və digər materiallar oxuya hazırlıq prosesində istifadə edilə biləcək yararlı resurslardır. Əvvəlcə oxunulacaq mövzu ilə bağlı qısa bir video tapılmalıdır.

7. Əsas məqsədi yeni lüğət sözləri təqdim etmək olan bir fəaliyyətdə, mətnin başa düşülməsini təmin etmək üçün bir neçə təlimat verilir. Müəllim şagirdləri iki-üç

qrupa ayırır və hər qrupdan bir şagird lövhəyə gəlir. Onlara bir söz verilir və onlar o sözü yazmalıdırlar. Oxu prosesində edilən tapşırıqlar prosesi daha dinamik edir. Belə tapşırıqlar mövzunun qavranılması baxımından və şagirdlərin diqqətlərinin cəmlənməsi baxımından da effektiv mühit yaratmaq üçün istifadə olunur.

1. Ümumiləşdirmə və ya parafraz etmək: Mətni oxuduqca şagirdlər mətnin müəyyən hissələrini, abzaslarını parafraz edə bilərlər. Bu, dilin baza biliklərinə əsaslanaraq edilən bir fəaliyyət olduğu üçün xüsusilə önəmli bir tapşırıqdır. Mətnin müvafiq hissəsinin qavranılmasının yoxlanılması baxımından, parafraz qabiliyyəti ilə paralel olaarq, həm də, ümumiləşdirmələr də xüsusi rol oynayır. Mətnin məzmununu anlamış olan oxucu rahatlıqla anladıqlarını öx sözləri ilə ifadə etməyi bacarmalıdır.

2. Kontekstdə ipuclarından istifadə: Şagirdlər oxuduqca hər hansı tanımadığı söz və ya ifadələri dairəyə alıb sonra onları sual olaraq müəllimə ünvanlayırlar. Lakin, lüğətlərini və ya telefonlarını istifadə etməzdən əvvəl onlara naməlum terminlərdən əvvəlki və sonrakı sözlərə daha yaxından nəzər salmalarını xahiş edilməlidir. Kontekstdaxili ipuçlarından istifadə edərək, onların mənasını anlaya bilib-bilməyəcəklərinə nəzarət edilməlidir və kontekstə uyğun olaraq sözlər və söz birləşmələri, anlayışlar izah edilməlidir.

3. Proqnozlaşdırma: Bu fəaliyyət oxudan əvvəlki mərhələdə qeyd edildiyi kimi oxu zamanı da önəmlidir. Hadisələrin gedişatında oxuculardan təxminlər almaq, və ya onlar oxuduqca hadisələrə, obrazlara və obrazların hərəkətlərinə qarşı reaksiyalarını ölçmək yararlı olacaqdır.

4. Mətni oxuyarkən gedişatda şagirdlərə anlama-qavrama sualları ünvanlamaq lazımdır. Bu zaman mətni oxumağa davam edib-edilə bilməyəcəyini aydınlaşdırmaq və hər hansı bir oxucu çətinlik çəkərsə ona vatında kömək edə bilmək mümkün olacaqdır. Zamana qənaət və produktivliyi artırmaq baxımından bu məsələ yetərincə önəmlidir.

5. Qrafik tapşırıqlar: Beyin xəritələri, venn diaqramları kimi cədvəl-qrafik tipli tapşırıqlar şagirdlərə öyrəndikləri məlumatların ümumiləşdirilmiş və analiz edilmiş, yəni emal olunmuş formasını vizual olaraq görmələrinə şərait yaradacaqdır. Həm də, individual olaraq hazırlandığı təqdirdə belə tapşırıqlar öyrənənlərin məlumatları qarışıq salmayaraq və vaxt itirmədən eydlər götürə bilmə bacarıqlarını da inkişaf etdirərək onlara analitik düşüncənin formalaşmasında və inkişafında yüksək səviyyədə dəstək göstərir.

Oxu prosesi bitdikdən sonra edilə biləcək tapşırıq tipləri siyahısı daha genişdir. Çünki oxucuların material haqqında məlumatları olur və bununla onlar bütün mətni əhatə edə biləcək müxtəlif tipli və genişmiqyaslı tapşırıqların həlli ilə məşğul ola bilərlər [5].

1. Ən geniş yayılmış tapşırıq növlərindən birincisi anlama səviyyəsini ölçmək üçün verilən suallardır. Belə suallar həm şagirdin produktiv qabiliyyətlətlərini

ortauya qoymalarına şərait yaradır və passiv şəkildə oxu, dinləmə fəaliyyətləri əsasında öyrəndikləri bilikləri danışaraq aktiv şəkildə tətbiq etmələrinə şərait yaradır.

2. Özünü test etmə: Bu üsul Azərbaycan Təhsilinin Milli Kurrikulumunda yer alan nüanslardan biri olub müəllim qiymətləndirməsi ilə yanaşı şagirdin özünü obyektiv şəkildə qiymətləndirməyi bacarması üçün təşkil edilən bir fəaliyyətdir. Digər fənlərdə bunu edilməsi yalnız psixoloji yöndən şagirdin inkişafına yol açsa da, xarici dillərin tədrisi zamanı özünüqiymətləndirmə dil bacarıqlarının təkmilləşdirilməsində də müəyyən rol oynayır [2].

3. Rollu oyunlar oynamaq: Müəllim öyrənənləri mətnin personajları kimi rol oynamağa vadar edir və onları mətnin hissələrini təkrarlamaq üçün öncədən tapşırıqlar verir. Bu, əsasən mətnin sinifdə müzakirəsindən sonra ev tapşırığı qismində verilə bilər. Bu tapşırıq dil biliklərinin gücləndirilməsi baxımından xüsusilə əhəmiyyətlidir. Belə tapşırıq sayəsində şagirdlər həm oxuyub anlayırlar, həm də, bu, onların danışma bacarıqlarının inkişafıa da müsbət təsir edir.

4. "Doğru və yanlış" sualları: Bu tapşırıqlar müəyyən sual və ya nəqli cümlələrdən təşkil olunmuş, şagirdlərdən verilən məlumatın doğru, yaxud yanlış olduğunu dəqiqləşdirmələri üçün olan tapşırıqlardır. Oxuduqlarına əsasən şagirdlər tapmalıdırlar ki, verilən məlumat mətnə əsasən doğrudur, yoxsa yanlışdır. Bəzən "Mətndə yoxdur" seçimi də əlavə edilə bilir, hansı ki, ilkin mərhələlərdə deyil, daha çox dili müəyyən səviyyədə qavramış və bacarıqlarını irəlilətmiş olan şagirdlərə belə tapşırıqları vermək daha məqsədəuyğundur.

5. Qapalı testlər: qapalı testlər mətndə həm qavrama-anlama, həm də mətnin təhlili ilə bağlı ola bilər. Verilən seçimlərdən biri əsasən sualın cavabına uyğun gəlir. Başqa bir növ qapalı suallarda isə bir neçə seçim verilə bilər. Belə testləri həll etmək açıq uclu testləri həll etməklə müqayisədə daha sadədir.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

**1.** Bamford, J. and Day R.R. Extensive Reading Activities for Teaching Language Cambridge: Cambridge University Press, 2004
2. Buckmaster, R 2005 Reading and reading skills: exploiting reading texts to the full. Modern English Teacher
3. Cavallera, I and Leiguarda, A 2006 Developing the reading brain. Modern English Teacher
4. Dlugosz, D 2000 Rethinking the role of reading in teaching a foreign language to young learners. ELT Journal
5. Field, J 2000 Finding one’s ay in the fog: listening strategies and second-language learners.
6. Gilmore, A 2004 A comparison of textbook and authentic interactions. ELT Journal

7. Kennedy, A 2000 "Did you like the text?" Reading without language-focused questions". Modern English Teacher
8. Linse, C. T. "Practical English language teaching: Young learners". New York 2005

**XAYALA GASIMOVA**

## ORGANIZING INTERACTIVE READING LESSONS DURING ENGLISH LANGUAGE TEACHING

**Summary**

The ability to read is one of the basic skills of people in the field of language and communication and is one of the main stages for learning any language. Developing these skills makes it easier for people to understand any language and texts and to use the texts for different purposes. Reading skills are mainly important for understanding texts, learning, gathering information and communicating in writing. Understanding a language's grammar, words, expressions, and other features of a language is important for people to interact with other people and texts, and to work in a variety of fields.

Reading skills also help people learn to translate written texts correctly and write their thoughts for different purposes. Developing these skills makes it easier for people to understand any language and texts and prepares them to work in a variety of fields. Additionally, research shows that developing receptive skills enables people to learn information in texts more effectively and to express themselves more accurately. However, developing listening and reading skills allows people to enlarge their information market and work in different fields.

In general, developing reading skills makes it easier for people to understand a language and texts, expands the market for information, allows texts to be used for different purposes, and helps to express one's thoughts more accurately. To develop these skills, people can use different methods, such as text reading, listening and repeating, recording ideas, and different language learning programs.

***Keywords:*** *interactive lesson, written meaning, intensive reading, extensive reading*

# ОРГАНИЗАЦИЯ ИНТЕРАКТИВНЫХ УРОКОВ ЧТЕНИЯ ВО ВРЕМЯ ПРЕПОДАВАНИЯ АНГЛИЙСКОГО ЯЗЫКА

**Резюме**

Умение читать является одним из основных навыков людей в области языка и коммуникации и является одним из основных этапов изучения любого языка. Развитие этих навыков облегчает людям понимание любого языка и текстов и использование текстов в различных целях. Навыки чтения в основном важны для понимания текстов, обучения, сбора информации и письменного общения. Понимание грамматики языка, слов, выражений и других особенностей языка важно для людей, чтобы взаимодействовать с другими людьми и текстами, а также работать в различных областях.

Навыки чтения также помогают людям научиться правильно переводить письменные тексты и записывать свои мысли для различных целей. Развитие этих навыков облегчает людям понимание любого языка и текстов и готовит их к работе в различных областях. Кроме того, исследования показывают, что развитие рецептивных навыков позволяет людям более эффективно усваивать информацию в текстах и выражать свои мысли более точно. Однако развитие навыков аудирования и чтения позволяет людям расширить свой информационный рынок и работать в различных областях.

В целом, развитие навыков чтения облегчает людям понимание языка и текстов, расширяет рынок информации, позволяет использовать тексты в разных целях и помогает точнее выражать свои мысли. Для развития этих навыков люди могут использовать разные методы, такие как чтение текста, слушание и повторение, запись идей и различные программы изучения языка.

***Ключевые слова:*** *интерактивный урок, письменное значение, интенсивное чтение, экстенсивное чтение*

**Redaksiyaya daxil olma tarixi: 11.10.2024**
**Çapa qəbul olunma tarixi: 24.10.2024**
**Rəyçi : fil.f.d.,dos. S.Ə.Cəfərova**
**tərəfindən çapa tövsiyə olunmuşdur**